# Xoş gördük, Mirzə Cəlil

**"Naxçıvanda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə 1998-ci il dekabrın 31-də Cəlil Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirdiyi evdə (hazırda Naxçıvan şəhərindəki İ. Məmmədov küçəsində) yaradılmışdır. Açılış 1999-cu il oktyabrın 13-də olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev muzeyin açılış mərasimində nitq söyləmişdir. Muzeydə böyük ədibin həyat və yaradıcılığına dair ekspozisiya nümayiş etdirilir.**

Cəlil Məmmədquluzadəyə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının Naxçıvanlı müasirlərinə aid sənədlər, onun mütaliə etdiyi klassiklərin əsərləri muzeyin eksponatları sırasındadır".

**("Naxçıvan ensiklopediyası", səhifə 310, Bakı 2002)**

**Xoş gördük, Mirzə Cəlil, xoş gördük, böyük ustad,**
**Qəlbimizdə həmişə sənə sevgi bəslənir.**
**Sən həyatda qazandın ən milli bəşəri ad,**
**Dilimizdə saf, incə kəlamların səslənir.**

**Dövrün eyiblərini açıb dedin üzünə,**
**Gecə-gündüz ömrünə böhtanlı şaxta doldu.**
**Çox istədin millətin çıxsın xoşbəxt, ağ günə,**
**Bu yollarda həmdəmin "Molla Nəsrəddin" oldu.**

**Müqəddəs qələminlə xalqa xidmət eylədin,**
**Ürəyini göynədib oba dərdi, el dərdi.**
**Zamanın ağrıların bir-bir açıb söylədin,**
**Yazdığın əsərlərin bu gün də təzə-tərdi.**



**Xoş gördük, Mirzə Cəlil, xoş gördük, böyük ustad,**
**Dilimizdə sözlərin şərqi kimi səslənir.**
**Bu gün müstəqil olan Azərbaycanımızda**
**Sənin kimi dahiyə xoş məhəbbət bəslənir.**

***

**Mirzə Cəlil adına Ədəbiyyat Muzeyi**

"C. Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikasının Ədəbiyyat muzeyi Azərbaycan SSR Nazirlər Sovetinin 1966-cı il tarixli qərarına müvafiq olaraq, 1967-ci il iyunun 12-də Naxçıvan şəhərində açılmışdır. Açılış zamanı 98 eksponat var idi, hazırda onların sayı 18000-dən çoxdur.

**("Naxçıvan ensiklopediyası" ndan, Bakı 2002)**

**"Ədəbiyyat muzeyi"-**
**Dahi Mirzə Cəlilin**
**adına olan muzey...**
**"Böyük bağ" da üstünü**
**almışdı kölgə, quzey...**
**Burada yığışardıq**
**ədəbi məclislərə,**
**Qarışardıq təzə-tər**
**duyğulara, hisslərə.**
**Yamanca çəkinərdik**
**Nizaminin, Sabirin,**
**Nəsiminin, Cavidin,**
**Böyük Mirzə Cəlilin**
**Ədib baxışlarından.**
**Qorunarduq hər zaman**
**Üstümüzə ələnən**
**Yersiz söz yağışından.**
**Muzeydə əlyazmalar,**
**Nadir nüsxə kitablar,**
**Darısqal otaqlarda,**
**Taxçada saxlanırdı.**
**Tarixlərdən yadigar**
**Qalan sirli əşyalar**
**Boğçalarda yığılıb**
**Kiliddə saxlanırdı.**
**Bu gün təravətlidi,**
**Göz oxşayır "Böyük bağ"**
**Gur işığa bələnib**
**Həm güneyi, quzeyi.**
**Naxışlardan don geyib**
**Baxır üzü günəşə**
**Mirzə Cəlil adına**
**Ədəbiyyat muzeyi.**

**İbrahim Yusifoğlu**
**AYB və AJB-nin üzvü,**
**Prezident mükafatçısı, AMEA-nın N. Gəncəvi adına Ədəbiiyyat İnstitutunun əməkdaşı**

Ədalət 2019.- 26 noyabr.- S.6.